DOI: https://doi.org/10.36719/2663-4619/120/24-27

**Vüsalə Qaziyeva**
Bakı Slavyan Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-0484-676X
vusalagaziyeva73@gmail.ru

# Şəxsiyyət azadlığı problemi ədəbi-bədii fenomen kimi

## Xülasə

Məqalədə XIX əsr xarici və rus ədəbiyyatında romantizm dövrünün şəxsiyyət və azad iradə mövzusu təhlil olunur. Bayron, Vinyi kimi romantiklərin, eləcə də Puşkin və Lermontovun əsərlərində qəhrəmanlar daxili ziddiyyətlər və dünya ilə qarşıdurma içində olan müstəqil, dəyərli şəxslər kimi təsvir edilir. Romantizm şəxsiyyəti öz-özlüyündə dəyərli və azad kateqoriya kimi təqdim edir, insan ruhunun dərindən kəşfi ilə realizmə yol açır. Realizmdə isə şəxsiyyət cəmiyyətlə dialektik əlaqədə, sosial mühitin təsiri ilə formalaşan bütöv kimi qəbul edilir. Məqalədə həmçinin niçşeçilik, freydizm və ekzistensializm kimi fəlsəfi cərəyanlarda şəxsiyyətin mürəkkəb, çoxşaxəli strukturu və azadlıq problemi müzakirə olunur. Azadlıq həm yaradıcı qüvvə, həm də məsuliyyət kimi təqdim edilir. Romantizm şəxsiyyətin tam suverenliyi və mənəvi-ruhi azadlığını vurğulayır, bu isə realizmdə şəxsiyyətin cəmiyyətə inteqrasiyası ilə tamamlanır. Məqalə Lermontovun yaradıcılığı kontekstində romantik azad iradə konsepsiyasına xüsusi diqqət ayırır və XIX əsr rus ədəbiyyatının formalaşmasında rolunu qeyd edir. Ümumilikdə, romantizm şəxsiyyətin azadlığı və dəyərinin bədii təsvirində mühüm mərhələ kimi təqdim olunur.

***Açar sözlər:*** *ədəbiyyat, ədəbi cərəyanlar, romantizm, azadlıq və şəxsiyyət problemi*

**Vusala Gaziyeva**
Baku Slavic University
PhD in Philology
https://orcid.org/0009-0002-0484-676X
vusalagaziyeva73@gmail.ru

# The Problem of Personal Freedom as a Literary - Artistic Phenomenon

## Abstract

The article analyzes the theme of personality and free will during the Romantic period in 19th-century foreign and Russian literature. In the works of romantics such as Byron and Vigny, as well as Pushkin and Lermontov, the protagonists are depicted as independent and valuable individuals experiencing inner contradictions and conflicts with the world. Romanticism presents personality as an inherently valuable and free category, leading to a profound exploration of the human soul and paving the way for realism. In realism, personality is understood as a whole formed through dialectical interaction with society and influenced by the social environment. The article also discusses the complex, multifaceted structure of personality and the problem of freedom in philosophical movements such as Nietzscheanism, Freudianism, Marxism, and existentialism. Freedom is portrayed both as a creative force and a responsibility. Romanticism emphasizes the full sovereignty and spiritual freedom of the individual, which is later complemented in realism by the integration of personality into society. The article pays special attention to the concept of romantic free will in the context of Lermontov’s works and highlights the role of 19th-century Russian literature in shaping national consciousness. Overall, Romanticism is presented as a significant stage in the artistic depiction of individual freedom and value.

***Keywords:*** *literature, literary trends Romanticism, freedom and the problem of personality*

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Xarici ədəbiyyatda Bayronun "Kain", "Manfred", Vinyinın "Eloa", rus ədəbiyyatında isə Puşkinin "Qaraçılar", "Quldur qardaşlar", Lermontovun "Demon", "Mtsiri", "Maskarad" əsərlərində baş qəhrəman dərin daxili ziddiyyətlər yaşayan, bütün dünya, göylər və özü ilə qarşıdurma içində olan şəxsiyyətdir. Romantizmin bütün poetik pafosu fərdi şəxsin ruh hərəkətlərini, ehtiraslarını psixoloji şəkildə çatdırmağa yönəlmişdi. Romantizm ədəbiyyatında şəxsiyyət öz-özlüyündə dəyərli, müstəqil kateqoriya kimi ortaya çıxdı. A.A. Hacıyev yazırdı: "Şairlər (romantiklər) artıq insanın ən dərin tənhalığını, həqiqi mənada "dünya kədərini" təsvir edirdilər... Şəxsiyyət dünyanı qavrayışında solipsizmə çatır, yalnız öz cəmiyyətinin deyil, ümumiyyətlə, nifrət, düşmənçilik, sosial ədalətsizlik və zülm üzərində qurulan hər hansı ictimai həyatın ağlını rədd edir" (Fromm, 1995, p. 59). Buna görə də XIX əsrin romantik yaradıcılığı müxtəlif ədəbiyyatşünaslar tərəfindən lirizm, individualizm, pessimizm, mistisizm, subyektivizm, idealizm kimi anlayışlarla xarakterizə olunur.

**Tədqiqat**

Romantiklərin ən böyük nailiyyəti insanın fərdi varlığının çoxşaxəli dərinliyini kəşf etmələri oldu. Bu nailiyyət romantizm ədəbiyyatının realizmə böyük xidmət göstərməsinə, insan ruhunun və daxili dünyanın dərinliklərinə yol açmasına səbəb oldu. Realist yazıçılar insanın mənəvi həyatını, psixologiyasını sosial varlıqla əlaqələndirirdilər. Realizm insanın daxili dünyasını onun ətraf mühitinin fəal təsiri ilə formalaşan təkamül kimi təqdim etdi. Romantizmdən fərqli olaraq, burada şəxsiyyət və cəmiyyət bir-birinə qarşı duran anlayışlar deyil, dialektik qarşılıqlı əlaqədə olan anlayışlardır. Realist sənətdə şəxsiyyət insanlığın, millətin, cəmiyyətin, təbəqənin bütövlüyünün bir hissəsi kimi təsvir edilir. Böyük realist O. Balzak "Cəmiyyət" sözünü böyük hərflə yazırdı, onu insan xarakterləri və talelərinin substansial qüvvəsi və demiuqru kimi görürdü, şəxsiyyəti isə ictimai və həyat şəraitindən asılı kateqoriya hesab edirdi. O. Balzakda insan şəxsiyyəti cəmiyyətin tərkib hissəsidir və burada psixologiya, fəlsəfə, sosiologiya, siyasət, milli və ümumbəşəri elementlər bir-birinə qarışır (Alışanlı, 2000).

Rus realist ədəbiyyatında da insan xarakterinin sosial determinasiya prinsipi mövcuddur. Lakin burada, təbii məktəb ədəbiyyatı istisna olmaqla, bu prinsip mütləqləşdirilmir. Rus realistləri — A.S.Puşkin, M.Y.Lermontov, F.M.Dostoyevski, L.N.Tolstoy, İ.S.Turgenev və A.P.Çexov — əsərlərində insan psixologiyasının əxlaqi-ruhani və dini aspektlərinə xüsusi yer verirlər. Romantizmdə mütləqləşdirilən bu ruhi aspekt realizmdə bədii-estetik sistemin tərkib hissəsinə çevrilir (Engels, Marks, 1953).

Şəxsiyyət problemi dekadent ədəbi və fəlsəfi cərəyanlarda da aktualdır, məsələn, niçşeçilik, freydizm, ekzistensializm kimi. Burada dekadans insanı monist baxışdan — insanın dünya, ilahi və cəmiyyətlə bütövlüyü kimi anlayışdan uzaqlaşdırır. İnsan bütövlükdən ayrılmış, özünəməxsus qanun və prinsipləri olan ayrıca dünya kimi qəbul edilir. Eyni zamanda şəxsiyyət bölünməz monada kimi yox, mürəkkəb, parçalanmış ruhi struktur kimi nəzərdən keçirilir. Buna görə də müxtəlif modernist yazıçılar insanı cəmiyyət fonunda deyil, ayrıca, fonu olmayan, xüsusi bir dünya kimi təsvir edirlər (Kamyu, 1988).

Niçşeçilik humanitar düşüncənin İntibahdan başlayan suverenləşmə prosesinin məntiqi davamı və yekunudur. Bu cərəyan insanın Tanrıya sitayişinin devrilməsi və insan dəyərinin təsdiqi ilə nəticələnir. Bu fəlsəfə insan azadlığı və ilahi qüvvə ilə mübarizənin zirvəsidir. İnsan öz taleyi üzərində tam suverenliyə malikdir və iradəsi ilə özünü ucalda bilər. Niçşeçi şəxsiyyət Tanrı və ilahi başlanğıcı rədd edir. Bu fəlsəfənin lakonik ifadəsi "Tanrı öldü!" formuludur. Tanrı yoxdursa, insan özü Tanrı olur. Ölən Tanrının yerinə superinsan gəlir, o, öz qanunları ilə yaşayır, öz-özlüyündə dəyərli və qüdrətli şəxsiyyətdir.

Fövqəladə insan ideyası ziddiyyətlərə baxmayaraq, rasional əsaslara malikdir. İnsanlıq tarixi göstərir ki, insan daim dogmatik əlaqələrdən — insan və Kainat, insan və Tanrı, insan və Cəmiyyət münasibətlərindən azad olmağa çalışır. Niçşeçi fövqəladə insan bütün əlaqələrdən azad olur, azad iradəsi ilə əksər insanların edə bilmədiyi hərəkətlərə qadirdir.

XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində, məsələn, freydizm, marksizm, ekzistensializm kimi fəlsəfi cərəyanlarda insan haqqında ateist baxışlar formalaşır. Marksist fəlsəfədə şəxsiyyət yeni

dünyanın yaradıcısı kimi bəyan edilir. O dağıdıcı yox, yaradıcı - konstruktiv qüvvə kimi təsəvvür edilir. Burada şəxsiyyət dini inancları illüziya kimi rədd edir və insanın yaradıcı qüvvəsinə əsaslanır. Marksizmdə şəxsiyyət və cəmiyyət qarşılıqlı istisna edən anlayış kimi yox, dialektik bütövlüyün tərkib hissələri kimi qəbul edilir. F. Engels yazırdı: "Şərait insanları yaradır, eyni dərəcədə də insanlar şəraiti yaradır" (Hegel, 1971, p. 27). Marksist filosoflar inanırdılar ki, şəxsiyyət yüksək dəyərlərlə, insanlığa xidmət idealları ilə yaşamalıdır. Beləliklə, marksizm şəxsiyyəti dogmatik zəncirlərdən azad edib, onu tamamilə cəmiyyətlə əlaqələndirir, lakin bu əlaqə metafizik yox, dialektik xarakter daşıyır.

XX əsrin böyük kəşflərindən biri Z. Freydin şəxsiyyətin strukturunu müəyyən edən güclər sistemini aşkar etməsidir. Freydə görə, insan davranışının əsasını öz əhəmiyyətini təsdiq etmək və "mən" şüuruna dərin daxili meyl təşkil edir. Şüursuz proseslərin kəşfi Freydə insan şəxsiyyətinin köklü, dərin təməlini açmağa imkan verdi (Olridj, 1975).

Şəxsiyyət problemi modernist ədəbi cərəyanların bir çox görkəmli yazıçılarının diqqət mərkəzindədir. Modernist ədəbiyyat üçün xarakterik olan insan obrazı onun ruhi həyatının ehtiraslar və hərəkətlərin xaotik dəyişməsi şəklində təsviridir, çox vaxt "yaxşı və pisin o biri tərəfində" (Niçşe) olur. Qəhrəman daxili boşluq hissini aradan qaldırmaq istəyir.

Müasir qərb ekzistensialist yazıçılar (A. Kamyu, J.P. Sartr) personajlarını itirilmiş həyat mənasının və subyektiv azadlıq axtarışına göndərirlər. Ekzistensializm insanın mahiyyətini onun öz imkanları və qabiliyyətləri, o cümlədən öz obrazını yaratmaq qabiliyyəti əsasında izah etməyə çalışır. İnsan yalnız cəmiyyət və mühitin məhsulu deyil, həm də özünün yaradıcı məhsuludur.

Bütün bu ədəbi-fəlsəfi cərəyanlar dünya mədəniyyətinin inkişaf zəncirinin bir halqasıdır. Onların ümumi meyli şəxsiyyət azadlığı problemini araşdırmaqdır. İnsan əsrlər boyu azadlıq və iradə arzusunda olmuşdur. Azadlıq ən ümumbəşəri dəyərlərdən biridir. Lakin hətta ən radikal düşüncələr belə azadlığın tam və mütləq ola bilməyəcəyini qəbul edirdi (Solov'yov, 1989).

İnsanda yaradıcı qüvvələrlə yanaşı, özbaşınalıq, dağıdıcı instinkt və eqoizm də mövcuddur. Bu instinktlərə sərbəstlik verilərsə, dünyada xaos yaranar. Buna görə şəxsiyyət azadlığı mürəkkəb fenomendir. Alman-amerikalı filosof və humanist E. Fromm yazırdı: "Azadlıq insanı azdırmaq deyil, onun məsuliyyətinin ölçüsüdür" (Vinoqradov, 1964, c. 6). Həqiqi azadlıq zorakılıq və qətl ilə əlaqəli deyil. A. Kamyu deyir: "Hər şeyə icazə vermək heç nə qadağan olunmur demək deyil" (Gədjiev, 1972, s. 272).

Şəxsiyyət azadlığı çoxşaxəli fenomen olub, ümumifəlsəfi, etik, psixoloji, sosial-tarixi və əlbəttə ki, ədəbi-bədii xarakter daşıyır. Şəxsiyyət ruhi varlıqdır və azadlığa ehtiyacı var. Azadlıq insan iradəsinin məhsulu olaraq insan varlığının mənasını müəyyən edir. Dövrlər, mədəniyyətlər və tarixlər fərqli olsa da, şəxsiyyət azadlığı problemi müxtəlif mədəniyyətlərdə həmişə aktual olmuşdur.

XVIII əsrin sonu və XIX əsrin əvvəlləri Avropa və Rusiyada dərin ziddiyyətlər və dramatizm dövrü idi. Eyni zamanda Böyük Fransa İnqilabı, Paris Kommunası, Napoleon əleyhinə müharibələr kimi böyük tarixi hadisələr baş verdi ki, bunlar ictimai və milli şüuru oyatdı, ədəbiyyat, fəlsəfə və incəsənətin inkişafına güclü təkan verdi. Şüurun kəskin yüksəlişi insanın ruhi həyatına dərin marağı artırdı. Bu baxımdan XIX əsr Rusiyada xüsusilə məhsuldar oldu, çünki bu əsr millətin ictimai və ruhi həyatının sürətlə inkişaf etdiyi dövr idi. Bu, milli şüurun və milli incəsənətin formalaşması zamanı idi. Bir əsrdə Rusiya ədəbiyyat və incəsənətdə digər xalqların bir neçə əsrdə keçdiyi inkişaf yolunu keçdi. XIX əsrdə Rusiyada yaşamış və yaratmış yazıçı və şairlər arasında xüsusi yer A.S. Puşkinə aiddir. Puşkin ədəbiyyatın ümumxalq konturlarını müəyyənləşdirdi. Onun yaradıcılığında rus ədəbiyyatının bütün meylləri, istiqamətləri və ideyaları əks olundu. Puşkin ənənəsini Lermontov və Qoqol davam etdirdi (Tamarchenko, 1961). Lermontov və Qoqol yaradıcılığında Puşkinin bütöv bədii dünya görüşü iki müstəqil istiqamətə bölünür: Lermontovun ümidsiz romantik inkarı və Qoqolun amansız satirik təhlili. Qoqol rus reallığına öz yüksək idealları ilə baxır və orada "adi insanın arzusu ilə mahiyyətinin parçalanmasını" görürdü. Lermontov isə öz yüksək ideallarını rus reallığı prizmasından görür, onları abstrakt, uca, həyata keçməz və məhkum hesab edirdi. Lermontovun romantizmi ilə Qoqolun realizmi — ideallarin reallıqla kəskin ziddiyyətinin fərqli ifadələridir. Qoqolun "Ölü canlar"ı və Lermontovun skeptikləri formaca fərqli, mahiyyətcə isə eyni ədəbiyyatın insana münasibətidir (Udodov, 1973).

Romantizm ədəbiyyatında şəxsiyyət və onun iradə azadlığı problemi daha dərindən və ağrılı şəkildə işlənmişdir. Romantizm — insanın özünə qarşı kəskin marağıdır. Romantik əsərlərin qəhrəmanı mənəviyyatca azad şəxsiyyətdir, müstəqil qərar və hərəkət qabiliyyətinə malikdir. Romantizm insanı dünyaya antropoloji baxışın təsdiqi dövrüdür, burada başlanğıc, mərkəz və nöqtə şəxsiyyətdir. Romantiklər fərdin istisnalığını, təkrarsızlığını və mürəkkəbliyini vurğulayırdılar.

## Nəticə

Romantizm insan şəxsiyyətinin tam suverenləşməsi, onun təbiətdən, Tanrıdan və cəmiyyətdən tam mənəvi-ruhi azadlığıdır. Belə bir insan şəxsiyyətinin mütləqiyyətləşdirilməsi romantik özünü dərk etmə üçün vacib idi ki, şəxsiyyət üzərində hökmranlıq edən ali qüvvənin təsirini aradan qaldırsın və azadlığını bərpa etsin. Növbəti incəsənət mərhələsində — realizm ədəbiyyatında — azadlığı bərpa olunmuş şəxsiyyət yenidən öz humanitar bütövlüyünə, xalqına, millətinə və cəmiyyətinə qayıdacaq və orada insan yuxarıda qeyd olunan humanitar dəyərlərin tərkib hissəsi kimi qəbul ediləcək. Lakin romantizmdə insan azadlığını, azad iradəsini və öz-özlüyündə dəyərini sübut etməli idi. İntibahdan başlayan şəxsiyyətin suverenləşmə prosesi romantizmdə öz mütləq və məntiqi sonuna çatdı.

## Ədəbiyyat

1. Alishanly, Sh. (2000). *Romantizm: spory istiny, problema romantizma i yeye osveshchenie v azerbaydzhanskom literaturovedenii* (Y. Borev & Y. Karayev, Red.). Elm.
2. Engels, F., & Marks, K. (1953). *Sochineniya* (Vol. 3), 27.
3. Freud, Z. (1959). Budushchee odnoy illyuzii. In *Sumerki bogov*, 48-75.
4. Fromm, E. (1995). *Anatomiya chelovecheskoy destruktivnosti*. Respublika.
5. Gadzhiev, A. A. (1972). *Romantizm i realizm*. Elm.
6. Gegel', G. V. (1971). *Estetika* (Vols. 1–2). Nauka.
7. Kamyu, A. (1988). Buntuyushchiy chelovek. In *Chelovek i yego tsennosti*, 40-75.
8. Olridzh, Dzh. (1975). Pisatel' v ideologicheskikh dzhunglyakh. In *Sud'by romana*.
9. Solov'yov, V. S. (1989). Chteniya o bogochelovechestve. In *Sochineniya* (Vols. 1–2).
10. Tamarchenko, D. Ye. (1961). *Iz istorii russkogo klassicheskogo romana: Pushkin, Lermontov, Gogol'*. Izd-vo AN SSSR.
11. Udodov, B. T. (1973). *M. Yu. Lermontov: Khudozhestvennaya individual'nost' i tvorcheskie protsessy*. Izd-vo Voronezhskogo in-ta.
12. Vinogradov, I. A. (1964). Filosofskiy roman M. Yu. Lermontova. *Novyy mir*, (10), 120-231.

Daxil oldu: 11.04.2025
Qəbul edildi: 29.07.2025